**Bakı Biznes Universitetinin 2014-2018-ci illər üzrə qəbul etdiyi Strateji İnkişaf Planının icrasına dair**

# H E S A B A T

Bakı Biznes Universiteti 2013-cü ilin sonunda növbəti 5 illik dövr üçün özünün yeni strateji inkişaf planını işləyib hazırlamış və Elmi Şurada müzakirə etdikdən sonra icra üçün qəbul etmişdir. Qəbul edilmiş plan aşağıdakı inkişaf istiqamətlərini özündə əks etdirmişdir:

- Tədrisdə məzmun-keyfiyyət dəyişikliyi.
- Professor-müəllim heyətinin potensialının yüksəldilməsi və peşəkarlığının artırılması.
- Maddi-texniki bazanın müasir standartlara uyğun yenidən qurulması və modernləşdirilməsi.
- Elmi-tədqiqat işlərinin səmərəliliyinin yüksəldilməsi.
- Tələbə fəallığının artırılması və məzunlarla iş.
- Beynəlxalq əlaqələr.

Yuxarıda qeyd olunan istiqamətlər üzrə ötən dövr ərzində bir sıra əməli işlər görülmüş və müvafiq nəticələr əldə edilmişdir. Belə ki, **tədrisdə yeni məzmun-keyfiyyət dəyişikliyinin** əldə edilməsi məqsədilə Universitetdə tədris olunan bütün fənlər üzrə slaydlar tərtib edilmiş, dərslər xüsusi treninq keçmiş müəllimlər tərəfindən fəal təlim üsulları əsasında aparılır. Universitetin müasir kitabxanasında bütün fənlər üzrə tərtib edilmiş mühazirə materiallarının mütəmadi olaraq yeniləşdirilməsi və təkmilləşdirilməsi prosesi həyata keçirilməklə, elektronlaşdırılıb tələbələrin tam istifadəsinə verilmişdir. Dərslərdə tələbə fəallığının artırılması məqsədilə mütəmadi olaraq onların biliyinin qiymətləndirilməsi üçün tədris olunan fənlər üzrə hər semestrdə seminar məşğələlərində iki yazılı, bir dəfə şifahi kolloviumlar keçirilir. Bu, həmçinin tədris fəaliyyətində tələbələr üçün özünənəzarət prinsipinin tətbiq olunmasına əlverişli imkan yaradır.

**Professor-müəllim heyətinin potensialının yüksəldilməsi**, pedaqoji fəaliyyətin təkmilləşdirilməsi, yeni təfəkkürlü müasir pedaqoji kadrların hazırlanması işinə sistemli yanaşılmışdır. Belə ki, pedaqoji fəaliyyətin təkmilləşdirilməsi və tərkibin yeniləşdirilməsi, müasir metodikanın mənimsənilməsi üçün yüksək tədris təcrübəsinə malik trenerlərdən istifadə edilərək tədrisin metodikası təkmilləşdirilmişdir. Bunun nəticəsidir ki, son 5 ildə universitetimizdə dərslər yalnız fəal təlim üsulu ilə aparılır. Müəllimlərin mənimsədikləri 10-larla müxtəlif təlim üsullarının tətbiqi tələbələri motivləşdirmiş, onların tədrisə olan marağını artırmışdır. Dərslər ağıllı lövhələrdə slaydlarla təqdimat formasında aparılır. Bununla yanaşı, professor-müəllim heyəti tədris metodikasını daha da təkmilləşdirmək üçün Avropa Şurasının “Erasmus Mundus” proqramı çərçivəsində Avropanın bir sıra universitetlərinə müxtəlif müddətlərə təkmilləşmə kurslarına

göndərilmişdir. Digər tərəfdən, pedaqoji kadrların tərkibinin cavanlaşdırılması, müasirləşdirilməsi və yeni təfəkkürlü kadrların formalaşdırılması üçün bir neçə istiqamətdə işlər görülmüşdür: Universiteti "əla" və "yaxşı" qiymətlərlə bitirən tələbələrin magistraturaya cəlb edilməsinə hazırlıq; onlardan ən yaxşılarının seçilib məqsədli olaraq Avropa universitetlərinə göndərilməsi; yerli doktorantura imkanlarından maksimum istifadə edilməsi; xaricdə təhsil almış magistr və doktorantların pedaqoji fəaliyyətə cəlb edilməsi. Bunun nəticəsidir ki, Universitetimizin fəaliyyəti dövründə 50-yə yaxın elmlər namizədi, 15 elmlər doktoru yetişdirilmişdir. Bu proses davam edir. Hazırda Universitetin 25 əməkdaşı ölkədaxili müxtəlif ali məktəb və tədqiqat institutlarında doktorant hazırlığında olmaqla yanaşı, Universitetin "Doktorantura və magistratura" şöbəsində 14 nəfər doktorant öz elmi-tədqiqat işlərini davam etdirirlər. Hal-hazırda isə 3 nəfər xarici ölkə universitetlərində (Macarıstan, Çexiya və Portuqaliyada) fəlsəfə doktorluğu proqramları üzrə doktorantura pilləsində təhsil alırlar. Bakı Biznes Universiteti bir çox nailiyyətləri ilə yanaşı, beynəlxalq aləmdə də böyük uğurlara imza ataraq 15 Avropa ölkəsinin 20 universiteti ilə yaxından əməkdaşlıq etmiş və müxtəlif mübadilə proqramları vasitəsilə 150 nəfərə yaxın tələbəni 1-2 semestr ərzində, 2 illik magistratura və 4 illik doktorantura səviyyələri üzrə müxtəlif Avropa ölkələrinə təhsil almaq üçün göndərmişdir. Bir faktı da qeyd etmək yerinə düşərdi ki, 2013/2014-cü tədris ili üçün Dövlət İmtahan Mərkəzinin elmi-statistik araşdırmaları üzrə Ali məktəb məzunlarının magistraturaya ümumi qəbulunun nəticələrinə görə Bakı Biznes Universiteti özəl ali məktəblər içərisində 1-ci yeri, Respublika üzrə 45 ali məktəb içərisində 12-ci yeri tutmuşdur. Daha doğrusu, məzunların 25,19%-i Bakı Biznes Universitetinin və ölkəmizin müxtəlif ali məktəblərinin magistraturasına qəbul olunmuşdur ("Abituriyent", dekabr 2013, № 12, səh. 245). 2018-2019-cu tədris ilində Bakı Biznes Universitetinə magistratura pilləsinə qeydiyyatdan keçən ümumilikdə 84 nəfər magistrantların 20 nəfəri Universitetimizin məzunudur, digər 64 nəfəri isə 19 ali təhsil müəssisəsinin məzunlarıdır, o cümlədən, Azərbaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasından – 2 nəfər, ADA Universitetindən – 2 nəfər, Azərbaycan Dövlət İqtisad Universitetindən – 20 nəfər, Azərbaycan Neft və Sənaye Universitetindən – 6 nəfər, Azərbaycan Dövlət Aqrar Universitetindən – 10 nəfər magistraturamıza qəbul olunmuşlar. 2017-ci il dekabrın 17-də keçirilən dövlət qulluğuna işə qəbul üzrə imtahandan uğurla keçən şəxslərin bitirdikləri ali təhsil müəssisələri üzrə Dövlət İmtahan Mərkəzinin təqdim etdiyi statistik məlumata əsasən Bakı Biznes Universiteti 65 ali təhsil müəssisəsi arasında 8-ci yeri (özəl ali təhsil müəssisələri arasında – 1-ci yeri) tutmuşdur.

Bakı Biznes Universiteti müasir tələblərə cavab verən **maddi-texniki bazaya** malikdir. Lakin tədrisin müasir tələblər səviyyəsində təşkili üçün bu bazanın yenidən qurulması, təkmilləşdirilməsi və modernləşdirilməsinə ehtiyac duyulmuşdur. Bu

məqsədlə qısa müddət ərzində ümumilikdə 15 xüsusi və spesifik fəal təlim otağı yaradılmış, 4 auditoriyada ağıllı lövhə quraşdırılmış, 5 linqafon otaqları yeni texniki vəsaitlərlə təchiz edilmişdir. Bununla yanaşı, bütün auditoriyalarda proyektorlar quraşdırılmış, kafedralar tədris prosesində istifadə üçün müasir noutbuklarla təmin olunmuş, hər bir ixtisas kafedrasının yanında əyani vəsaitlərlə təchiz olunmuş xüsusi laboratoriyalar yaradılmış, tədris prosesinin gedişatına operativ nəzarət üçün auditoriyalarda video müşahidə sistemi quraşdırılmışdır. Kitabxana fondu zənginləşdirilmiş və 45 ədəd internetə birbaşa çıxışı olan noutbukla təchiz olunmuşdur. Bundan əlavə Universitet əməkdaşlarının və tələbələrinin istifadəsi üçün internetə şəbəkəsi yüksək sürətli optik xətt vasitəsilə (60 Gb/s) çıxış yaradılmışdır. Kitabxanada mühazirə materiallarının surətinin çıxarılması üçün surətçıxaran aparat və digər texniki avadanlıqlar quraşdırılmışdır. Universitetin kitabxanası elektronlaşdırılmış və xüsusi sayt yaradılmaqla tələbələrin və professor-müəllim heyətinin istifadəsinə verilmişdir. Burada toplanan materiallardan günün istənilən vaxtı yararlanmaq olar. Növbəti tədris illərində Universitetin elektron internet portalının yaradılması planlaşdırılmışdır. Tələbələrin və tədqiqatçıların istifadəsi üçün Universitetdə dissertasiya fondu yaradılmışdır. Hazırda burada 150-dən çox doktorluq və namizədlik dissertasiyası toplanmışdır.

**Elmi-tədqiqat işlərinin səmərəliliyinin yüksəldilməsini** metodik-təminat bazasının möhkəmləndirilməsinə və tədrisin keyfiyyətinə birbaşa təsir göstərən amillərdən biri kimi hesab etmək olar. Bakı Biznes Universiteti bu sahədə də ötən dövrdə böyük uğurlar əldə etmişdir. Təkcə son 5 ildə Universitetin əməkdaşları tərəfindən ümumilikdə 3101,5 çap vərəqi həcmində elmi nəşrlər, o cümlədən: 357 fənn proqramı, 62 adda dərslik, dərs vəsaiti, 27 adda monoqrafiya, 408 jurnal məqalələri, 408 konfrans materialları qriflə nəşr edilib kitabxanaya verilmişdir. Bakı Biznes Universitetinin 2013-cü ilin mart ayında keçirilən 20 illik yubileyi ərəfəsində professor-müəllim heyəti tərəfindən 658 ç.v. həcmində 13 dərslik və dərs vəsaiti, 11 monoqrafiya, 6 jurnal materialı, 51 yeni tədris proqramı və tezislər nəşr edilmişdir. Yəni, hər bir müəllimə orta hesabla 7 ç.v. həcmində elmi nəşr düşür ki, bu da bir sıra xarici ölkələrdə qəbul edilmiş normadan 3 dəfə artıqdır. Universitetin dövri mətbuatı kimi rübdə bir dəfə 7 ç.v. həcmində elmi-praktiki “Audit” jurnalı nəşr olunur. Burada nəşr olunan məqalələrin elmi dəyərinə görə jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qeydiyyatında olan nüfuzlu jurnalların siyahısına daxil edilmişdir.

2018-ci ilin fevral ayında Dövri Nəşrlərin Qeydiyyatı üzrə Beynəlxalq Mərkəz tərəfindən “Audit” jurnalına Beynəlxalq Standart Seriya Nömrəsi verilmişdir (İSSN 2616-4310).

Qəbul olunmuş 5 illik inkişaf proqramına əsasən elmi-tədqiqat işlərinin səmərəliliyinin yüksəldilməsi sahəsində də bir sıra yeni addımlar atılmışdır. Əldə edilmiş

elmi-tədqiqat işlərinin nəticələrinin tədris prosesinə və istehsalata tətbiq edilməsi üçün 2013-cü ilin dekabr ayında universitetdə "İqtisadi islahatlar və strateji araşdırmalar mərkəzi", "Sosial-iqtisadi araşdırmalar mərkəzi", "Tərcümə mərkəzi", "Milli operator və test mərkəz"ləri yaradılmışdır.

**Tələbə fəallığının artırılması və məzunlarla işlə** bağlı bir sıra praktiki addımlar atılmışdır. Belə ki, Universitetdə ötən dövr ərzində "Pilot qrupu" layihəsi üzərində ciddi işlər aparılmışdır. "Pilot qrup"larının gələcəkdə Universitetimizin keyfiyyət göstəricisi kimi tanınacağı artıq heç kimdə şübhə doğurmur. Universitetdə hazırda "Pilot qrup"ları üzrə I və II kurslardan ibarət 3 qrup fəaliyyət göstərir. Həmin qruplarda ümumilikdə 50-yə yaxın tələbə təhsil alır. Burada bütün fənlər hal-hazırda 100 % ingilis dilində tədris edilir. Bu sahədə onların fəallığını və inkişafını təmin etmək üçün "Pilot" layihəsi çərçivəsində "Conversation club"lar təşkil olunur, xarici ölkələrdən mütəxəssislər dəvət olunur, xarici ölkələrdən Respublikamızda qonaq olan şəxslərlə mütəmadi görüşlər təşkil edilir. Bunun nəticəsidir ki, 2018-ci ildə Avropa Şurasının "Erasmus +" layihəsi və qardaş Türkiyənin "Mövlanə" proqramı üzrə 4 nəfər bakalavriat dərəcəsindən və 1 nəfər isə magistratura dərəcəsindən Avropanın və Türkiyənin qabaqcıl universitetlərinə təqaüdlə təhsil almağa göndərilmişdir. Bir sıra tələbələr üçün yay məktəbləri xarici ölkələrdə təşkil edilmişdir.

Tələbə fəallığının artırılmasında TEC böyük rola malikdir. Belə ki, tələbələrin elmə olan meylinin artması, öz ixtisasları üzrə əlavə biliklərə yiyələnməsi, ixtisaslı kadr hazırlığı səviyyəsinin daim yaxşılaşdırılması TEC-in fəaliyyətinin nəticəsidir. TEC-in əsas məqsədi ali təhsilli mütəxəssislərin hazırlanmasının keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş elmi-təşkilati tədbirlərin həyata keçirilməsi, elmi-texniki potensialın qorunub saxlanılması və tələbələrin elmi-tədqiqat fəaliyyətinin yeni sosial-iqtisadi şəraitə uyğunlaşdırılmasında Universitetə kömək etməkdən ibarətdir.

Universitetdə TEC-in üzvlərinin sayı 2018-ci ildə 298 nəfər olmuşdur. Onlardan 238 nəfəri seçilib TEC-in konfransında öz çıxışlarını təqdim etmişlər. Bu sahədə tələbələrə rəhbərlik ən təcrübəli professor-müəllim heyətinin üzvlərinə həvalə edilmişdir.

Universitetin qəbul etdiyi proqrama əsasən məzunların işlə təmin edilməsi istiqamətində əməli işlərin aparılması məqsədilə "Məzunlarla iş və karyera" mərkəzi yaradılmışdır. Bu mərkəzin araşdırmaları nəticəsində məlum olmuşdur ki, universiteti son 10 ildə bitirən tələbələrin 80%-dən çoxu ixtisası üzrə müvafiq işlə təmin olunmuşdur, yerdə qalan məzunların müvəqqəti işləməməsi isə bir sıra obyektiv səbəblərlə izah edilir.

Universitetin **beynəlxalq əlaqələr şöbəsi** inkişaf planının icrası ilə əlaqədar bir sıra istiqamətlərdə öz fəaliyyətini yenidən qurmuş və genişləndirmişdir. Bakı

Biznes Universiteti beynəlxalq əlaqələrin inkişafında Azərbaycan ali təhsil müəssisələri arasında ən qabaqcıl universitetlərdəndir. Universitetdə Beynəlxalq Əlaqələr üzrə prorektorluq daxilində Beynəlxalq Əlaqələr şöbəsi, Layihələr şöbəsi, Karyera şöbəsi və Keyfiyyət Təminatı Mərkəzi fəaliyyət göstərir. Beynəlxalq əlaqələrin genişləndirilməsi strategiyası əsasən 4 istiqamətə yönəlmişdir: tələbə və müəllim mübadiləsi, beynəlxalq layihələrdə iştirak, ikili diplom layihələri və əcnəbi tələbələrin qəbulu. Universitetdə Beynəlxalq Əlaqələr şöbəsi ötən dövrdə dünyanın 50-ə yaxın universiteti ilə tərəfdaşlıq müqavilələri imzalamış və müxtəlif layihələrdə ortaq fəaliyyət göstərmişdir.

Universitetimiz son 5 ildə Erasmus Mundus, Erasmus + KA1, Mövlana və ikili diplom proqramları çərçivəsində 150-dən artıq tələbə və müəllim heyətini Avropanın müxtəlif ölkələrinə təhsildə mübadilə məqsədilə göndərmişdir. Bakı Biznes Universitetinin bakalavr və magistratura hazırlığı üzrə ixtisasları Avropanın qabaqcıl Universitetlərinin eyni tipli ixtisasları ilə tam uyğunlaşdırılmışdır. Buna görə də, Bakı Biznes Universiteti olaraq Avropanın bir neçə Universitetləri ilə ikili diplom layihəsini həyata keçirir və hal-hazırda da bu istiqamətdə digər qabaqcıl Universitetlərlə danışıqlar aparılır. Nümunə olaraq 2016-2017-ci tədris ilində Çexiyanın Tomas Bata Universiteti ilə magistratura pilləsinin bir neçə ixtisası üzrə bağlanılmış ikili diplom müqaviləsini misal göstərmək olar. Hazırda isə bu sahədə əməkdaşlıq etmək üçün İtaliyanın, Litvanın və Rumıniyanın qabaqcıl ali təhsil müəssisələri ilə danışıqlar aparılır və tezliklə yeni müqavilələr imzalanacaqdır.

Əməkdaşlıq etdiyimiz layihələrdən biri də Mövlanə Mübadilə Proqramıdır. Proqram çərçivəsində universitetimiz Ankara Universiteti, İstanbul Yıldız Teknik Universiteti, Gümüşhanə Universiteti, Kastamonu Universiteti, İzmir İqtisadiyyat Universiteti, Bingöl Universiteti, Alanya Aladdin Keykubat Universiteti və Türkiyənin digər qabaqcıl Universitetləri ilə müqavilələr imzalamış və hal-hazırda da bu əməkdaşlıqlar yüksək səviyyədə davam etdirilir.

Son 5 ildə Universitetin işçi və müəllim heyətinin əhəmiyyətli hissəsini Avropada təhsil almış və təcrübə keçmiş gənclər təşkil etmişdir. Bu məqsədlə Universitetimiz birbaşa doktorantura təhsili üzrə və kadrların Avropanın nüfuzlu Universitetlərində doktorantura təhsili almaları üçün müxtəlif müqavilələr bağlamışdır. Hal-hazırda Bakı Biznes Universitetindən Çexiyada, Portuqaliyada, Macarıstanda və digər ölkələrdə full PhD proqramı üzrə doktorantura pilləsində təhsil alırlar.

Universitetin uğurlu addımlarından biri də beynəlxalq layihələrdə iştirakıdır. Universitet ilk dəfə 2012-ci ildə E-Notes adlı ilk Tempus layihəsinə tərəfdaş olmuş, bu tərəfdaşlıq sayəsində 3 il ərzində universitet heyətinin kompüter biliklərini inkişaf etdirmiş, Avropanın 5 universitetində təlimlərdə iştirak etmiş və ECDL mərkəzi yaradılmışdır. 2013-cü ildə Erasmus Mundus Effort proqramına tərəfdaş

olaraq qoşulmuş proqram çərçivəsində 40 nəfərdən ibarət tələbə heyəti Çexiya, Yunanıstan, Polşa, Latviya və Portuqaliyada müvafiq olaraq bakalavr, magistr, PhD təhsili almış, müəllim heyəti ixtisas artırma kurslarında iştirak etmiş və qısa müddətli mühazirələr oxumuşdur.

2017-ci ildə Bakı Biznes Universiteti Avropa Komissiyası tərəfindən maliyyələşdirilən, Azərbaycan Respublikası Təhsil Nazirliyinin tərəfdaş olduğu 11 Azərbaycan universiteti, 4 Avropa universiteti və Akkreditasiya şirkətinin tərəfdaş olduğu Azərbaycanda ən böyük miqyaslı “Azərbaycan universitetlərində Keyfiyyət Təminatı Mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi” adlı Erasmus Plus proqramı üzrə təqribən 1 milyon avro dəyərində qrant layihəsi qazanmışdır. Layihənin məqsədi Azərbaycan universitetlərində daxili keyfiyyət təminatı sisteminin yaradılması, universitetlərdə fəaliyyətlərin sistemləşdirilməsi və Avropa standartlarına uyğunlaşdırılmasıdır. Layihə 3 il ərzində həyata keçiriləcəkdir. 2018-ci ilin yekun hesabatına görə layihə çox uğurla icra edilir.